Xalq qəzeti 2020.- 9 dekabr.- S.5.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 487** **Bakı şəhəri, 8 dekabr 2020-ci il**

***Bakı Metropoliteninin yeni stansiyasının "8 Noyabr" adlandırılması haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təşəbbüsünə əsasən Bakı Metropoliteninin Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi, 1065-ci məhəllə ünvanında yerləşən yeni stansiyası "8 Noyabr" adlandırılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***